

# Bir əbədi ulduz var

Bir əbədi ulduz var. Bu, həqiqət ulduzudur. Bu, elə ulduzdur ki, heç bir zamanın buludu, tufanları onun qabağını kəsə bilməz. Bu, elə ulduzdur ki, o, insanlığın varlığına, təbiətinə doğru öz işığı ilə nüfuz eləyir.

Yeriyir insan ruhuna, mənəviyyatına doğru. İnsana diktə edir ki, sən həqiqətə doğru gəl, doğruya doğru gəl.

* * *

Əzizim, Yədulla Ağazadə... Sənin timsalında Azərbaycan ziyalılarının hər hansı vicdanlı kimsəsinə müraciət etmək mənə əsas verir. Çünki uzun zaman ərzində (bu, artıq neçə on illik deməkdir) səni tanımağım mənə kifayət qədər inam bəxş edir. Axı sən ən azı son 20 illik zaman dövründə mənim həyat sinemamdan qabarıq görünən obraz olmusan.

Əzizim, Yədulla Ağazadə, sənin həyatını və yaradıcılığını xarakterizə edən məqamlara ola bilsin ki, yetərincə diqqət etməyim. Amma bu, o demək deyil ki, sənin böyük işlərin haqqında məlumatsızam və yaxud da onları görmək istəmirəm. Yox, Allah eləməsin, sənin Azərbaycan ədəbiyyatı ilə bağlı tədqiqatlarının möhtəşəmliyinin əhatə dairəsini görməmək, bunu qavramamaq ən azı korafəhmlilik olardı.

Bu gün Yədulla Ağazadə kimi alimlərin kimliyini göstərmək üçün onların yaradıcılıq arsenalına həyat yoluna işıq salmaq çox vacibdir. Ancaq müəyyən məqamlarda bu təşəbbüslər etirazla qarşılanır. Çünki Yədulla Ağazadə kimi alimlər kifayət qədər ədəbi arenada görünmək gücündədir. Sanki səmamızda görünən ulduzu görən adamlara təzədən təqdim edirik.

* * *

Kəhkəşan mühitində ulduzların itməyi var, təzədən doğulmağı var. Hər halda, astronomiya elmi bizə bunun doğru olduğunu təlqin edir. Ancaq ədəbi arenada doğulmaq var, ölmək yoxdur. Çünki ədəbi arenanın mühitində ölməz əsərlər yaradıcılığı ilə ölməzlik haqqı qazananlar var. Və bu yerdə tam mənəvi haqq ilə Y.Ağazadənin adını çəkməmək mümkün deyil. O, Azərbaycan ədəbiyyatını bütün qloballığı ilə mənimsəmiş Azərbaycan ədəbi mühitini varlığından keçirmiş olan bir alim kimi özünü təsdiq etmiş simadır.

Nisan yağışı - dirilik yağışı. Ədəbi mifoloji düşüncədə yenidən dünyaya gəlişin çağırışı.

...Yədulla Ağazadə zaman-zaman Azərbaycan ədəbi düşüncəsində təkrar-təkrar yenidən doğuluş gücündə olan ədəbi simadır.

...Bir əbədi ulduz var. Bu ulduz təmənnasızlıq işığını Yer kürəsinə göndərməkdə intəhasızlıq istəyindədir. Amma Yer kürəsindəki bu işığı görə bilənlər onu görmək iqtidarındadırmı?

Dəxli yoxdur, gördün-görmədin, o ulduz var!

***Əli Rza XƏLƏFLİ***
***02.02.2021***

Kredo 2021.- 3 fevral.- S.1.